# Çinin "Dongfang Electronics Corporation" şirkətinin nümayəndələri Füzuli və Hadruta səfər ediblər

Çinin "Dongfang Electronics Corporation" şirkətinin nümayəndələri Bakıda keçirilən görüşlərindən sonra işğaldan azad olunmuş ərazilərə səfər ediblər.





AZƏRTAC xəbər verir ki, səfərdə korporasiyanın baş direktor müavini Şitan Cao, Mərkəzi Asiya filialının direktoru Vei Liu, baş menecerin məsləhətçisi Dmitri Jarovski və digər rəsmi şəxslərdən ibarət 9 nəfərlik heyət və "Azərişıq" ASC-nin nümayəndələri iştirak ediblər.

Yanvarın 16-da Füzuli şəhərinə və Xocavənd rayonunun Hadrut qəsəbəsinə gələn qonaqlara dövlətimizin dəstəyi sayəsində qısa zaman ərzində aparılan yenidənqurma işləri barəsində ətraflı məlumat verilib. Səfər zamanı tərəflər arasında elektrik təsərrüfatının müasir standartlara uyğun qurulması və yeni əməkdaşlıqlar sahəsində təcrübə mübadiləsi aparılıb.

Nümayəndə heyəti bu gün Şuşa şəhərinə səfər edəcək.

Qeyd edək ki, Bakıda keçirilmiş COP29 tədbiri çərçivəsində "Azərişıq" ASC Çin Xalq Respublikasının "DongFang Electronics" şirkəti ilə yeni qarşılıqlı əlaqələr və əməkdaşlıq məqsədli danışıqlar aparıb. Davam edən əməkdaşlıq çərçivəsində "Azərişıq" ASC-nin rəhbər heyəti 2024-cü il dekabrın 5-də Çinin Yantay şəhərində yerləşən "DonqFang Electronics" şirkətinin təqdim etdiyi innovativ texnologiyalar, məhsullar və beynəlxalq layihələr barədə məlumat əldə etmək məqsədilə görüş keçirib.

Xatırladaq ki, "DonqFang Electronics" şirkəti "Ağıllı Şəbəkə" sistemlərinin yaradılması və idarə edilməsi sahəsində böyük təcrübəyə malik olmaqla, bu yöndə bir çox ölkədə uğurlu layihələr həyata keçirib. Bundan başqa şirkət günəş panellərinin, enerji saxlama sistemlərinin və SCADA vasitəsilə idarəetmə həllərinin istehsalında ixtisaslaşıb. Bu sistemlərin tətbiqi ilə enerji istehlakında qənaət təmin olunur. Buna misal olaraq Ukraynada enerji saxlama deposu və Şandonq əyalətində 22 MVt gücündə günəş örtüyü panelləri layihələri uğurla reallaşdırılıb.

Səfər zamanı "DonqFang Electronics" şirkətinin istehsal müəssisələri ilə tanışlıq həyata keçirilib. Burada amorf nüvəli üçbucaq tipli transformatorlar, yüksək dəqiqlikli hesabat sayğacları və kameralı sayğac qutuları nümayiş etdirilib. Smart sayğaclar xüsusi diqqət çəkib, çünki onlar müasir rabitə protokolları (RS, GPRS, PLC) ilə təchiz olunub və qaz, su, elektrik enerjisi üçün birgə sayğac funksiyası təklif edir.

Əməkdaşlığın davamı olaraq "Dongfang Electronics Corporation"ın rəhbər heyəti Bakıya səfər edib. Yanvarın 13-19-nu əhatə edən səfər çərçivəsində korporasiyanın baş direktor müavini Şitan Cao, Mərkəzi Asiya filialının direktoru Vei Liu, baş menecerin məsləhətçisi Dmitri Jarovski və digər rəsmi şəxslərdən ibarət heyət "Azərişıq" ASC-nin rəhbər şəxsləri ilə görüş keçirib. Bu əməkdaşlıq tərəflər arasında innovativ yeniliklər və təcrübə mübadiləsi məqsədi daşıyıb.

"Dongfang Electronics Corporation"ın nümayəndə heyətinin səfəri yanvarın 19-da başa çatacaq.

Azərbaycan.- 2025.- 17 yanvar (№10).- S.13.